QANUN № 02 (352), 2024, s. 95-99

**Əliyev Samir Sabir oğlu,**
Bakı Dövlət Universitetinin doktorantı, hüquq üzrə fəlsəfə doktoru
E-mail: samir.s.aliyev@inbox.ru

**UOT 343.2**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.25**

# CİNAYƏT TƏRKİBİNİN KONSTRUKSİYASINDA ZƏRƏRÇƏKMİŞ ŞƏXSİN YERİ

***Açar sözlər:*** *cinayət hüququ, cinayət tərkibi, elementlər, cinayət qurbanı, zəruri əlamətlər, analiz.*

***Ключевые слова:*** *уголовное право, состав преступления, элементы, жертва преступления, необходимые признаки, анализ.*

***Keywords:*** *criminal law, composition of the crime, elements, victim of the crime, necessary signs, analysis.*

Cinayət tərkibi (*corpus delicti*) dedikdə, ayrılıqda götürülmüş hər hansı bir hərəkətin və ya hərəkətsizliyin obyektiv və subyektiv xarakterli elə əlamətlərinin məcmusu başa düşülməlidir ki, onların məcmusu bu hərəkəti və ya hərəkətsizliyi cinayət kimi xarakterizə edə bilsin. *Corpus delicti*-ni təşkil edən obyektiv və subyektiv xarakterli əlamətlərin əsas cəhəti ondan ibarətdir ki, bu əlamətlər qüvvədə olan cinayət qanunu ilə təsbit edilmiş olmalıdır [3, s. 134; 5, s. 11].

Başqa sözlə, *corpus delicti* dedikdə, cinayət qanunda törədilməsi cəza təhdidi ilə qadağan edilmiş əməlin (hərəkət, hərəkətsizlik) obyektiv və subyektiv əlamətlərinin məcmusu başa düşülür. Bu anlayış əlamətlərin məcmusu kimi xarakterizə edildiyi üçün, belə qənaətə gəlmək olar ki, həmin əlamətlərdən hər hansı birinin əskikliyi tərkibin yaranmamasına səbəb olur. Cinayət hüququnda *corpus delicti*-nin obyektiv əlamətlərinə cinayətin obyekti və cinayətin obyektiv cəhəti, subyektiv əlamətlərinə isə cinayətin subyekti və subyektiv cəhəti aid edilir [4, s. 171].

Cinayətin obyekti kriminal qəsdin nəyə qarşı yönəlmiş olması sualına cavab verir. Kriminal qəsdin ictimai münasibətlərə yönəldiyini nəzərə alaraq, nəticə çıxarmaq olar ki, cinayətin obyekti dedikdə, qanunla kriminal qəsdlərdən qorunan ictimai münasibətlər başa düşülür. Cinayət törədilərkən cinayətin obyektinə bu və ya digər dərəcədə və formada ziyan vurulur. Törədilmiş, yaxud hazırlanan cinayətin növündən, predmet aidiyyətindən asılı olaraq, bu ziyanın vurulması üçün ya konkret hərəkətlər edilməli, ya da konkret hərəkətlərin edilməli olduğu halda hərəkətsizlik göstərilməlidir. Konkret halda hərəkətin edilmiş olması və ya hərəkətsizliyin göstərilmiş olması kənar şəxslər tərəfindən müşahidə edilə bilmə xüsusiyyətinə malik olduğu üçün, belə demək olar ki, cinayətin obyektiv cəhəti onun görünən, müşahidə edilən, zahiri tərəfidir. Odur ki, əməlin konkret cinayət növünə aid edilməsi üçün əməlin zahiri əlamətləri həmin cinayət üçün cinayət qanununda müəyyən edilmiş zahiri əlamətlərlə üst-üstə düşməlidir, əks halda, cinayətin obyektiv cəhətindən və dolayısı ilə

cinayət tərkibinin mövcudluğundan bəhs etmək mümkün deyil. Cinayət törətmək insana xas olan əlamətdir. Hər bir cinayət kiminsə tərəfindən törədilmiş olmalıdır, insan faktoru olmadan cinayət hadisəsinin baş verməsi mümkün deyildir. Hətta hüquqi şəxslərin cinayət məsuliyyəti məsələsi həll edilərkən də hüquqi şəxsə cinayət-hüquqi tədbirlər həmin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün məhz fiziki şəxslər tərəfindən törədilən cinayətlərə görə tətbiq edilir. Bu anlamda, cinayəti törədən və bu əməlinə görə cinayət məsuliyyətinə cəlb edilməli olan şəxs cinayətin subyekti hesab edilir. Cinayətin subyekti mövcud olmadan cinayət tərkibi mövcud ola bilməz. Hər bir cinayət törətmiş şəxsin şüurunda onun törətdiyi əməlin obyekti və obyektiv cəhəti inikas olunur və subyekt obyektə və obyektiv cəhətə müəyyən bir psixi münasibət göstərir. Cinayətin subyektiv cəhəti də məhz cinayətin obyektiv əlamətlərinin subyektin şüurunda inikasına və bunlara olan psixi münasibətinə deyilir.

Fikrimizcə, milli hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilmişdir ki, Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin təhlili belə nəticə çıxarmağa əsas verir ki, onun Xüsusi hissəsində təsbit edilmiş cinayət əməllərinin bir qisminin hüquq tətbiq etmə təcrübəsində düzgün tövsif edilməsi üçün iş üzrə ümumiyyətlə zərərçəkmiş şəxsin mövcudluğu deyil, məhz həmin zərərçəkmiş şəxsin qanunla tələb olunan xüsusi əlamətləri müəyyən edilməlidir. Başqa sözlə, Cinayət Məcəlləsinin Xüsusi hissəsində bir sıra cinayətlərin tövsifi üçün zərərçəkmiş şəxs ümumi cinayət-hüquqi əlamətlərlə yanaşı qanunda xüsusi vurğulanmış, yaxud qanunun ruhundan irəli gələn və cinayət-hüquqi baxımdan əhəmiyyət kəsb edən xüsusi əlamətlərə də cavab verməlidir. Bu cür cinayətlər üzrə zərərçəkmiş şəxslərin qeyd edilən xüsusi meyarlara cavab verməməsi əməlin səhv tövsifinin, dolayısı ilə sübutetmə predmetinin elementləri kimi cinayət hadisəsinin baş vermə fakt və hallarının, o cümlədən cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətlərinin səhv müəyyən edilməsinin birbaşa göstəricisi kimi çıxış edir [2, s. 292].

Məsələn, qüvvədə olan cinayət qanununa əsasən, bir sıra cinayətlərdə *corpus delicti*-nin mövcud olması üçün cinayət qurbanının mütləq ya qadın, yaxud da uşaq olması tələb edilir. Belə ki, məcburi hamiləlik; qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə; qanunsuz abort etmə; zorlama; qadını nikaha daxil olmağa məcbur etmə kimi cinayətlərin tərkibinin mövcud olması üçün cinayət qurbanının mütləq qadın olması tələb edilir. Eləcə də, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə; əxlaqsız hərəkətlər, yəni on altı yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə; yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə; yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə kimi cinayətlərin mövcud ola bilməsi üçün cinayət qurbanının uşaq, yəni yetkinlik yaşına çatmayan şəxs olması tələb edilir.

Bundan başqa, cinayət qanunu ilə bir sıra elə cinayətlər nəzərdə tutulmuşdur ki, bu cinayətlərin qurbanları yalnız hərbi qulluqçular olduqda həmin cinayətlərin tərkibləri mövcud olur. Rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə; rəisə qarşı zorakı hərəkətlər etmə; hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə; tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma; əsirlikdə olan hərbi qulluqçunun cinayət hərəkətləri kimi cinayətlərin mövcud olması üçün bu əməllərin qurbanı müxtəlif kateqoriyalı hərbi qulluqçular olmalıdır. Məsələn, CM-in 329-cu maddəsində "rəis" və "hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxs" kimi

qurbanlardan bəhs edilir. Rəis dedikdə, digər hərbi qulluqçuların daimi və ya müvəqqəti olaraq tabe olduqları şəxs başa düşülür. Hərbi qulluq çəkmə prosesində hərbi qulluqçuların hətta müvəqqəti tabe olduqları şəxslər də xidməti vəziyyətinə görə rəis hesab olunurlar. Hərbi qulluqçuların xidmət üzrə tabe olduqları rəislər birbaşa, onlardan hərbi qulluqçulara daha yaxın olanı isə bilavasitə rəis adlanır. Bir-birinə tabe olmayan hərbi qulluqçular tərəfindən xidmətin birgə yerinə yetirilməsi prosesində onlardan vəzifəcə böyük olan, bərabər vəzifəlilərdə isə rütbəcə yüksək olan rəis hesab olunur. Hərbi vəzifəlilərin siyahısı nizamnamələrdə və digər normativ aktlarda nəzərdə tutulur. Nəzərə almaq lazımdır ki, rəis vəzifəsi ştatdankənar da ola bilər. Ştatdankənar rəis vəzifəsi müəyyən dövr üçün konkret vəzifələrin (məsələn, təlim atışı, təlim məşğələsi, təsərrüfat işləri və s.) yerinə yetirilməsi məqsədilə yaradılır. Hərbi qulluqçular rəis vəzifəsini daimi və ya müvəqqəti tuta bilərlər. Rəis funksiyasını onun müavini, yaxud xüsusi göstərişlə sair hərbi qulluqçu yerinə yetirə bilər. Həmçinin, nəzərə almaq lazımdır ki, hərbi qulluqçuların hərbi rütbəyə görə tabeçiliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi ilə müəyyən edilir. Bu mənada, zabitlər bütün sıravi əsgərlər, matroslar və çavuşlar, çavuşlar isə, öz növbəsində, aid olduğu hərbi hissənin bütün sıravi heyəti üçün rəis hesab edilir [1]. Hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxs dedikdə hansı şəxslərin başa düşülməli olması məsələsinə aydınlıq gətirmək üçün Azərbaycan Respublikasının "Hərbi qulluqçuların statusu haqqında" 25 dekabr 1991-ci il tarixli Qanununa müraciət etmək tələb olunur.

Həmçinin, evtanaziya və xəstəyə kömək göstərməmə kimi cinayət əməllərinin mövcudluğu üçün cinayət qurbanının yalnız xəstə şəxs olması tələb edilir. Xüsusilə qeyd edilməlidir ki, evtanaziya cinayətindən zərərçəkmiş şəxs qismində yalnız xəstə şəxslər, özü də hər cür xəstəliyə deyil, sağalmaq ehtimalı olmayan, uzun və ağrılı davam edən, xəstəyə ruhi, psixoloji, fizioloji əzab-əziyyət çəkdirən xəstəliklərə düçar olmuş şəxslər çıxış edə bilər. Zərərçəkmiş şəxsin könüllü razılığı – onun xahişi də nəzərdən keçirilən cinayət tərkibinin mövcudluğunu müəyyən edən hüquqi əhəmiyyətli amillərdəndir.

Fikrimizcə, Cinayət Məcəlləsinin 315-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlində də cinayət qurbanının xüsusi əlaməti *corpus delicti* elementi kimi çıxış edir, çünki həmin cinayətin tərkibinin mövcud olması üçün "müqavimət göstərmə" və "zor tətbiq etmə" xüsusi əlamətli cinayət qurbanına – ya hakimiyyət nümayəndəsinə, ya da onun yaxın qohumlarına qarşı yönəlmiş olmalıdır. Cinayət Məcəlləsinin kommentariyasında şəxsin hakimiyyət nümayəndəsi kimi xarakterizə edilməsi üçün aşağıdakı meyarlara istinad edilir. İlk növbədə, hakimiyyət nümayəndəsi hakimiyyətə xas olan ümumməcburi göstərişlər vermək və qərarlar qəbul etmək səlahiyyətinin daşıyıcısıdır. Hakimiyyət nümayəndəsi dedikdə, təşkilati-hüquqi formasından, tabeliyindən, idarə mənsubiyyətindən asılı olmayaraq, müəssisə, idarə və təşkilatlar, habelə ayrı-ayrı şəxslər üçün icrası məcburi olan tələblər irəli sürmək və qərarlar qəbul etmək üçün hakimiyyət səlahiyyətlərinə malik olan şəxs başa düşülür. Hakimiyyət səlahiyyətləri dedikdə, xidməti vəzifəsinin yerinə yetirilməsi zamanı idarəetmə sahəsində müxtəlif qərarlar qəbul etmək, icrası vətəndaşlar və hüquqi şəxslər üçün məcburi olan tələblər irəli sürmək hüququ başa düşülür [1].

Eynilə, CM-in 277-ci maddəsində təsbit edilmiş cinayətə də xüsusi əlamətli qurbanı olan cinayət kimi baxmaq mümkündür, çünki həmin cinayətin tərkibinin mövcud olması üçün cinayət qurbanının ya "dövlət xadimi", ya "ictimai xadim", ya da "xarici dövlətin nümayəndəsi" olması tələb olunur. Dövlət xadi-

mi dedikdə, Azərbaycan Respublikası ərazisində dövlət həyatının və ictimai həyatın müxtəlif sahələrində (siyasət, iqtisadiyyat, mədəniyyət, dövlət quruculuğu və s.) dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən və onu bilavasitə həyata keçirən dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxsləri; ictimai xadim dedikdə, hər hansı digər ictimai təşkilatda, siyasi partiyada, həmkarlar ittifaqı təşkilatlarında siyasət, iqtisadiyyat, sosial-mədəni və s. sahələrə rəhbərliyi həyata keçirən şəxslər, habelə bu təşkilatların fəaliyyətində aktiv iştirak edən şəxslər, həmçinin bələdiyyə üzvləri; xarici dövlət nümayəndəsi dedikdə isə, xarici dövlət və hökumət rəhbərləri, xarici dövlətin Azərbaycan Respublikasında olan nümayəndə heyətinin üzvləri, xarici səfirliklərin və konsulluqların diplomatik nümayəndəlikləri və s. başa düşülür [1].

CM-in 163-cü maddəsi "Jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma" cinayətini nəzərdə tutur. Göründüyü kimi, həmin cinayət jurnalist peşəsinin daşıyıcılarını xüsusi mühafizə altına alır. Bu həm də o deməkdir ki, nəzərdən keçirilən cinayətdən zərərçəkmiş şəxslər yalnız jurnalistlər ola bilərlər. Azərbaycan Respublikasının "Media haqqında" 30 dekabr 2021-ci il tarixli Qanununun 1.1.4-cü maddəsinə əsasən, jurnalist dedikdə, əmək müqaviləsi ilə media subyektində və ya fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə fəaliyyət göstərən, əsas fəaliyyət növü davamlı şəkildə məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etmək, ötürmək, habelə həmin məlumatlara dair fikir bildirmək (şərh vermək) olan və bu fəaliyyəti gəlir əldə etmək məqsədilə yerinə yetirən şəxs başa düşülür.

CM-in 287-ci maddəsində də təsbit edilmiş cinayətdən zərərçəkmiş şəxslər xüsusi əlamətə malikdirlər. Belə ki, bu cinayətdən zərərçəkmiş şəxslər ya ədalət mühakiməsini, yaxud ibtidai istintaqı həyata keçirən şəxslər, yaxud da onların yaxın qohumları ola bilərlər. Konstitusiyanın 125-ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Bu mənada, CM-in 287-ci maddəsinin adındakı "ədalət mühakiməsini həyata keçirən şəxs" ifadəsi yalnız maddənin dispozisiyasındakı hakimə uyğun gəlir. İbtidai istintaq isə ibtidai araşdırmanın növlərindən biri olub, cinayət təqibi üzrə məhkəməyədək aparılan icraatın formasıdır. Bu mənada, CM-in 287-ci maddəsinin adındakı "ibtidai istintaqı həyata keçirən şəxs" ifadəsi də yalnız maddənin dispozisiyasındakı təhqiqatçıya, müstəntiqə və prokurora uyğun gəlir. Baxmayaraq ki, CM-in 287-ci maddəsinin dispozisiyasında sadalanan daha üç xüsusi əlamətli cinayət qurbanları – müdafiəçi, ekspert və icra məmuru faktiki olaraq maddənin adındakı əlamətlərə cavab vermirlər, yəni onlar nə ibtidai istintaqı, nə də ədalət mühakiməsini həyata keçirmirlər, onların həyata keçirdikləri funksiyaların ədalət mühakiməsi üçün əhəmiyyəti nəzərə alınaraq, bu şəxslər də CM-in 287-ci maddəsi ilə xüsusi mühafizə altına alınmışlar. CM-in 288-ci maddəsində isə "Ədalət mühakiməsinin və ya ibtidai istintaqın həyata keçirilməsi ilə əlaqədar hədələmə və ya zor tətbiq etmə" cinayəti nəzərdə tutulmuşdur. Bu cinayət əməlinin qurbanları yalnız işin və ya müvafiq materialların məhkəmədə baxılması ilə əlaqədar hakim, habelə onun yaxın qohumlarını, eləcə də, işin və ya müvafiq materialların məhkəmədə baxılması və ya ibtidai istintaqın aparılması, hökmün yaxud digər məhkəmə qərarlarının icrası ilə əlaqədar prokuror, müstəntiq və ya təhqiqatçı, müdafiəçi, ekspert, icra məmuru, habelə onların yaxın qohumları ola bilər.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası: [2 cilddə] / Elmi red. F.Y. Səməndərov. – Bakı: Hüquq Yayın Evi, – c. 2. – 2018. – 832 s.

2. Vəliyev X.R. Cinayət mühakimə icraatında zərərçəkmiş şəxs. Monoqrafiya. – Bakı: Hərbi Nəşriyyat, 2018. – 40 s.

3. Иванчин А.В. Сущность “corpus delicti” / Современное состояние и проблемы уголовного и уголовно-процессуального права, юридической психологии // Материалы Международной научно-практической конференции, – Россия, г. Волгоград: – 13-14 декабря, – 2012, – с. 134-140.

4. Назарова К.О. Уголовное право Азербайджанской Республики. Общая часть. Учебник. Баку, 2015, 908 с.

5. Lisun E.A., Shishchenko E.A. Criminal-legal value of “Modus operandi” as basically element of “Corpus delicti” / International Scientific and Practical Conference: World Science, 2016, No. 11(15), Volume 4, – p. 11-12.

**Алиев Самир Сабир оглу**

**МЕСТО ПОТЕРПЕВШЕГО В КОНСТРУКЦИИ СОСТАВА ПРЕСТУПЛЕНИЯ**

**РЕЗЮМЕ**

Состав преступления – это совокупность предусмотренных уголовным законом объективных и субъективн ых признаков, характеризующих общественно опасное деяние как преступление. Понятие состава преступления образуют четыре группы признаков (объективные и субъективные), именуемых в теории уголовного права элементами состава преступления. Под элементом состава преступления следует понимать однородную группу юридических признаков, характеризующих одну из сторон преступления. Это объект, объективная сторона, субъект и субъективная сторона преступления. Автор статьи придерживается мнения о том, что для образования состава преступления по некоторым деяниям жертва таких деяний должна обладать особыми признаками. Далее в статье автор обосновывает данный вывод и на примере отдельно взятых статей уголовного закона подчеркивает важность особых признаков жертв преступления для формирования *corpus delicti*.

**Aliyev Samir Sabir**

**THE PLACE OF THE VICTIM IN THE STRUCTURE OF THE CORPUS DELICTI**

**SUMMARY**

The composition of the crime is a set of objective and subjective features provided for in the criminal law, characterizing a socially dangerous act as a crime. The concept of the offence consists of four groups of characteristics (objective and subjective), referred to in criminal law theory as elements of the offence. The element of the offence should be understood as a homogeneous group of legal features characterizing one of the parties to the offence. It is the object, the objective side, the subject and the subjective side of the crime. The author is of the view that in order to constitute a crime in certain acts, the victim of such acts must have special characteristics. Further, in the article, the author justifies this conclusion and, on the example of individual articles of the Criminal Law, emphasizes the importance of the special characteristics of the victims of the crime for the formation of corpus delicti.

**Redaksiyaya daxilolma tarixi: 10.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 12.02.2024**
**Çapa qəbul olunma tarixi: 14.02.2024**